Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Pakistanın hava zərbələrindən Əfqanıstanda 14 nəfər həlak olub

indicə



Pakistanın hava zərbələri nəticəsində neft anbarlarında yanğın. (Foto arxiv)

İyunun 10-da Pakistanın Əfqanıstanın üç vilayətinə endirdiyi hava zərbələri nəticəsində 11-i uşaq olmaqla 14 nəfər həlak olub. Məlumatı Əfqanıstandakı Taliban hökuməti yayıb.

Talibanın sözçüsü **Zəbiullah Mücahid** bildirib ki, Kunar, Xost və Paktika vilayətlərində mülki evlər bombalanıb, 14 nəfər də yaralanıb – onların hamısı qadınlar və uşaqlardır.

Pakistan isə bildirib ki, Əfqanıstanla sərhədi boyunca "dəqiq hesablanmış" zərbələr ölkənin şimal-qərbində silahlı hücumların son vaxtlar artmasına cavab olaraq endirilib.

İslamabad Kabili Pakistan ərazisində hücumlar planlaşdıran silahlıları himayə etməkdə günahlandırır. Taliban 2021-ci ildə Əfqanıstanda hakimiyyətə qayıdandan sonra,

xüsusilə 2022-ci ildən Pakistanda silahlı hücumların sayı dörd dəfə artıb.

Taliban bu ittihamları rədd edir və Pakistandakı silahlı fəaliyyətin ölkənin daxili problemi olduğunu bildirir.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur